# QƏHRƏMANOV FARİZ ÇOBAN OĞLU



Qəhrəmanov Fariz 29 mart 1974-cü ildə Bərdə rayonunun Xəsili kəndində dünyaya göz açmışdır. Burada məktəbə getmiş, 1991-ci ildə orta təhsilini başa vurmuşdur. O, təhsilini Bərdə rayonundakı 47 saylı texniki-peşə məktəbində davam etdirmişdir. 1992-ci ilin iyun ayında Milli Orduya çağırılmış, 776 saylı hərbi hissədə xidmətə başlamışdır. O, hərbi hissənin tərkibində Ağdam, Ağdərə, Füzuli, Kəlbəcər və Tərtər rayonları uğrunda gedən ağır döyüşlərin iştirakçısı olmuşdur. 1994-cü ilin yanvarında Ağdərənin müdafiəsi zamanı yaralanmışdır. Bir müddət hərbi hospitalda müalicə olunmuşdur. Sonra yenidən cəbhəyə qayıtmışdır. O, 1995-ci il martın 13-də dövlət çevrilişinə cəhdin qarşısının alınmasında qəhrəmanlıq nümunəsi göstərmişdir. Həmin hadisələr zamanı göstərdiyi igidliyə görə Qəhrəmanov Fariz Çoban oğlu Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Gənc döyüşçü 1995-ci ilin iyunundan 1996-cı ilin dekabrınadək Türkiyə Respublikasında Jandarm və Komanda Məktəbini bitirmişdir. 1997-ci ildə isə təhsilini Azərbaycan Texniki Universitetində davam etdirmiş, maşınqayırma sənayesi üzrə menecment ixtisasına yiyələnmişdir. O, 1999-cu ildə yenidən sənədlərini Ali Birləşmiş Komandanlıq Məktəbinə vermiş və motoatıcı qoşunlar komandiri ixtisası üzrə orada tam kursu başa vurmuşdur. Hazırda polkovnik-leytenant rütbəsində Müdafiə Nazirliyinin Döyüş hazırlığı və Hərbi Təhsil Baş İdarəsində xidmətini davam etdirir. Ailəlidir. İki övlad atasıdır.